*“Metafizika” Journal*
*Vol 8, issue 8, serial 36, 2025. pp.54-64*
*AcademyGate Publishing*
*p-ISSN 2616-6879; e-ISSN 2617-751X*

**UDC:** 32.; 323.
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 406
10.33864/2617-751X.2025.v8.i8.268-281

# OVERVIEW OF THEORETICAL-METHODOLOGICAL BASIS OF FOREIGN POLICY

**Hava Orujova***

**Abstract.** This article examines the theoretical foundations and methodological approaches of foreign policy in the modern system of international relations. The process of formation of foreign policy decisions of states is analyzed in the context of realism, liberalism, constructivism, post-internationalism and systemic-structural approaches. The article also emphasizes the influence of geopolitical and social factors, as well as non-state actors on foreign policy. In the modern world, foreign policy is presented not only as a product of interstate relations, but also as a complex field of activity formed as a result of the interaction of social, economic and ideological processes at various levels.

**Keywords:** Foreign policy, international relations, theory, realism, liberalism

* Doctoral student at the Department of "International Relations" of Baku State University; Baku, Azerbaijan
E-mail: havva.orucova@bsu.edu.az
https://orcid.org/0009-0000-8384-7108
**To cite this article:** Orujova, H. [2025]. OVERVIEW OF THEORETICAL-METHODOLOGICAL BASIS OF FOREIGN POLICY. *“Metafizika” journal, 8*(8), pp.268-281.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.268-281

***Article history:***
*Received: 10.10.2025*
*Accepted: 13.11.2025*
*Published: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 32.; 323.
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 406
10.33864/2617-751X.2025.v8.i8.268-281

# ОБЗОР ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИХ ОСНОВ ВНЕШНЕЙ ПОЛИТИКИ

**Хевва Оруджова***

**Абстракт.** В статье рассматриваются теоретические основы и методологические подходы внешней политики в современной системе международных отношений. Процесс формирования внешнеполитических решений государств анализируется в контексте реализма, либерализма, конструктивизма, постинтернационализма и системно-структурного подхода. Также в статье подчеркивается влияние геополитических и социальных факторов, а также негосударственных субъектов на внешнюю политику. В современном мире внешняя политика представляется не только продуктом межгосударственных отношений, но и сложной сферой деятельности, формирующейся в результате взаимодействия социальных, экономических и идеологических процессов на различных уровнях.

**Ключевые слова:** Внешняя политика, международные отношения, теория, реализм, либерализм

* Докторант кафедры «Международные отношения» Бакинского государственного университета; Баку, Азербайджан
E-mail: havva.orucova@bsu.edu.az
https://orcid.org/0009-0000-8384-7108

**Цитировать статью:** Оруджова, Х. [2025]. ОБЗОР ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИХ ОСНОВ ВНЕШНЕЙ ПОЛИТИКИ. *Журнал «Metafizika»*, *8*(8), c.268-281.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.268-281

***История статьи:***
*Статья поступила в редакцию: 10.10.2025*
*Отправлена на доработку: 13.11.2025*
*Принята для печати: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 32.; 323.
**KBT:** 63.3(2)6-6
**MJ №** 406
10.33864/2617-751X.2025.v8.i8.268-281

# XARİCİ SİYASƏTİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARININ İCMALI

**Həvva Orucova***

**Abstrakt.** Bu məqalədə müasir beynəlxalq münasibətlər sistemində xarici siyasətin nəzəri əsasları və metodoloji yanaşmaları araşdırılır. Realizm, liberalizm, konstruktivizm, postinternasionalizm və sistemli-struktur yanaşmalar kontekstində dövlətlərin xarici siyasət qərarlarının formalaşma prosesi təhlil olunur. Məqalədə həmçinin geosiyasi və sosial faktorların, eləcə də qeyri-dövlət aktorlarının xarici siyasətə təsiri vurğulanır. Müasir dünyada xarici siyasət yalnız dövlətlərarası münasibətlərin məhsulu kimi deyil, həm də müxtəlif səviyyəli ictimai, iqtisadi və ideoloji proseslərin qarşılıqlı təsiri nəticəsində formalaşan kompleks fəaliyyət sahəsi kimi təqdim edilir.

**Açar sözlər:** Xarici siyasət, beynəlxalq münasibətlər, nəzəriyyə, realizm, liberalism

* Bakı Dövlət Universitetinin “Beynəlxalq münasibətlər” kafedrasının doktorantı; Bakı, Azərbaycan
E-mail: havva.orucova@bsu.edu.az
https://orcid.org/0009-0000-8384-7108

**Məqaləyə istinad:** Orucova, H. [2025]. XARİCİ SİYASƏTİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARININ İCMALI. *“Metafizika” jurnalı, 8*(8), səh.268-281.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.268-281

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 10.10.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 13.11.2025*
*Çapa qəbul edilmişdir: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Xarici siyasət, beynəlxalq münasibətlər sisteminin mərkəzi fəaliyyət sahələrindən biri olmaqla, dövlətlərin qlobal və regional davranış trayektoriyalarını müəyyənləşdirən əsas mexanizmlərdən sayılır. Onun elmi təhlili və nəzəri izahı yalnız spesifik hadisələrə dair situativ analizlərlə deyil, eyni zamanda geniş konseptual çərçivələrlə aparıldıqda, daha dərindən anlaşıla bilir. Bu baxımdan, xarici siyasət anlayışının öyrənilməsi, beynəlxalq münasibətlərin ümumi strukturunu, güc balansını, aktorlararası qarşılıqlı təsir dinamikasını və normativ sistemləri başa düşmək üçün fundamental əhəmiyyətə malikdir.

Dövlətlərin qərarvermə mexanizmlərinin arxasında dayanan nəzəri yanaşmalar- realizm, liberalizm, konstruktivizm, postinternasionalizm, ingilis məktəbi və digər istiqamətlər- həm davranış modellərinin əsaslandırılmasında, həm də proqnozlaşdırıla bilən analiz çərçivələrinin qurulmasında mühüm rol oynayır. Bu nəzəri məktəblər, dövlətlərin maraqlarının formalaşması, təhlükəsizlik prioritetlərinin müəyyən olunması, beynəlxalq institutlarla qarşılıqlı münasibətlərin məzmunu və diplomatik strategiyaların seçimi kimi kompleks qərarvermə proseslərini sistemli şəkildə izah etməyə imkan yaradır. Hər bir yanaşma, xarici siyasətin ya gücə, ya iqtisadi qarşılıqlı asılılığa, ya da sosial konstruksiyalara əsaslandığını fərqli baxış bucağından əsaslandırır və bu da analitik müxtəlifliyi təmin edir.

Müasir dövrdə xarici siyasətin formalaşması və tətbiqi prosesi təkcə dövlətin daxili siyasi-struktur reallıqları ilə deyil, həm də beynəlxalq sistemin dəyişkən və çoxvektorlu xarakteri ilə sıx şəkildə əlaqəlidir. Qloballaşma, regional inteqrasiya, transsərhəd təhlükəsizlik çağırışları və qeyri-dövlət aktorlarının artan təsiri nəticəsində dövlətlərin xarici siyasət kursu əvvəlki dövrlərlə müqayisədə daha mürəkkəb və çoxsəviyyəli konfiqurasiyada inkişaf edir. Bu reallıq analitik yanaşmaların tətbiq sahəsini genişləndirməklə yanaşı, onların tətbiq metodologiyasının da təkmilləşdirilməsini zəruri edir.

Beləliklə, xarici siyasətin təhlili yalnız keçmiş hadisələrin şərhi və indiki vəziyyətin anlaşılması ilə məhdudlaşmır, həm də gələcək siyasi tendensiyaların istiqamətinin müəyyənləşdirilməsində mühüm analitik alətə çevrilir. Bu səbəbdən, müxtəlif nəzəri-metodoloji yanaşmaların müqayisəli şəkildə öyrənilməsi, xarici siyasətin elmi əsasda izahı baxımından vacib elmi və praktiki dəyərə malikdir. Hazırkı məqalənin məqsədi də məhz bu nəzəri çərçivələri ümumiləşdirərək, xarici siyasətin müasir transformasiyalar fonundakı konseptual əsaslarını sistemli şəkildə ortaya qoymaqdan ibarətdir.

## 2.Xarici Siyasətin Teorik Çərçivələri və Müasir Transformasiyalar Kontekstində Dövlət Davranışları

Beynəlxalq münasibətlərin anlaşılması üçün nəzəri çərçivələrin tətbiqi, dövlətlərin beynəlxalq sistemdəki davranışlarını sistematik şəkildə izah etmək

baxımından mühüm əhəmiyyət daşıyır. Xarici siyasət nəzəriyyələri vasitəsilə tədqiqatçılar yalnız konkret tarixi hadisələri deyil, həm də dəyişən qlobal şərtlər fonunda dövlətlərin qərarvermə dinamikasını və qarşılıqlı münasibətlərini analitik əsaslarla şərh edə bilirlər. Bu yanaşmalar- realizm, liberal institusionalizm, konstruktivizm və digər paradigmatik istiqamətlər- beynəlxalq aktorların maraqlarını, təhlükəsizlik ehtiyaclarını və əməkdaşlıq modellərini sistemli şəkildə təhlil etməyə şərait yaradır. Beləliklə, bu nəzəri bünövrə yalnız retrospektiv təhlil imkanı vermir, eyni zamanda strateji proqnozlaşdırma baxımından da əvəzsiz vasitədir.

Dövlətlərin xarici siyasəti yalnız konkret hadisələrin təsiri ilə deyil, həm də struktur səviyyəli amillərlə- geosiyasi mövqe, tarixi təcrübə və beynəlxalq sistemin arxitekturası ilə sıx əlaqədə formalaşır. Bu baxımdan, müasir dövrdə dövlətlərarası münasibətlərin ənənəvi ikitərəfli formaları öz aktuallığını qoruyub saxlasa da, çoxtərəfli əməkdaşlıq və inteqrasiya platformaları getdikcə daha mühüm təsir amilinə çevrilməkdədir. Xüsusilə XXI əsrdə qloballaşma proseslərinin intensivləşməsi nəticəsində regional və qlobal təşkilatlar vasitəsilə həyata keçirilən əməkdaşlıq mexanizmləri dövlətlərin xarici siyasət trayektoriyasını əhəmiyyətli dərəcədə yönləndirir.

İnteqrasiya prosesləri yalnız iqtisadi və hüquqi müstəvilə məhdudlaşmır, eyni zamanda beynəlxalq aktorların davranış modellərini və qarşılıqlı asılılıq səviyyələrini müəyyənləşdirən sistematik dəyişikliklərə səbəb olur. Bu kontekstdə regional güc mərkəzlərinin təşəkkülü, beynəlxalq institutların rolu və dövlətlərin çoxvektorlu siyasət yürütmək qabiliyyəti xarici siyasətin yeni reallıqlarını formalaşdırır. Dövlətlər öz strateji qərarlarını bu kompleks və dinamik mühitdə qəbul edərkən, həm daxili konfiqurasiya, həm də beynəlxalq kontekstin tələbləri ilə üz-üzə qalır.

Xarici siyasət anlayışı dövlətin beynəlxalq sistemdə həyata keçirdiyi məqsədyönlü fəaliyyətlər toplusunu ifadə edir. Bu fəaliyyətlərin əsas məqsədi milli maraqların qorunması və reallaşdırılmasıdır. Lakin bu maraqlar nə təcrid olunmuş formada mövcuddur, nə də onların reallaşdırılması yalnız dövlətin öz iradəsinə əsaslanır. Xarici siyasətin icra prosesi həm daxili siyasi prioritetlərdən, həm də beynəlxalq güc balansından və digər aktorların strateji mövqelərindən asılı şəkildə müəyyənləşir. Məhz bu səbəbdən xarici siyasətə təsir edən əsas faktorlar arasında dövlətin geostrateji mövqeyi, iqtisadi potensialı, təhlükəsizlik çağırışları və normativ-mədəni amillər xüsusi yer tutur.

Diplomatiya xarici siyasətin başlıca icra aləti kimi çıxış etsə də, o, heç də yeganə vasitə deyil. Xarici siyasətin həyata keçirilməsində iqtisadi əlaqələr, hərbi-siyasi ittifaqlar, enerji təhlükəsizliyi mexanizmləri və beynəlxalq hüquqi rejimlər də önəmli rol oynayır. Müasir dövrdə bu alətlərin kombinasiyalı şəkildə istifadəsi, dövlətlərə daha çevik və çoxşaxəli siyasət yürütmək imkanı

verir. Beləliklə, xarici siyasət sadəcə reaksiya xarakterli fəaliyyət deyil, əksinə, normativ çərçivədə qurulmuş, analitik planlaşdırmaya əsaslanan və transformativ gücə malik strateji davranış forması kimi ortaya çıxır [2, 210]

Dövlətlərin beynəlxalq sistem daxilində davranış modellərini izah edən klassik nəzəri yanaşmalardan biri olan siyasi realizm, xarici siyasətin formalaşmasında güc balansı, maraqların toqquşması və dövlətlərin rasional qərarvermə qabiliyyəti kimi fundamental prinsipləri ön plana çıxarır. Bu yanaşmanın aparıcı nümayəndələrindən biri sayılan Hans J. Morgenthau xarici siyasəti dövlətin digər beynəlxalq aktorlarla- istər dövlətlər, istərsə də qeyri-dövlət subyektləri ilə- qarşılıqlı münasibətlər çərçivəsində həyata keçirdiyi fəaliyyət sahəsi kimi xarakterizə edir. Onun fikrincə, xarici siyasət dövlətin daxili siyasətindən ayrılmaz şəkildə bağlı olan, lakin öz məqsəd və vasitələri ilə beynəlxalq müstəvidə həyata keçirilən strateji davranış modelidir. Morgenthaunun yanaşmasında diqqət çəkən əsas prinsip odur ki, dövlətlər öz milli maraqlarını yalnız daxili müstəvidə deyil, həm də beynəlxalq miqyasda qorumaq və reallaşdırmaq üçün xarici siyasət yürütməyə məcburdurlar. Bu siyasət, öz mahiyyətinə görə, reaktiv deyil, daha çox qabaqlayıcı və yönəldici xarakter daşıyır. Yəni, dövlətlər təkcə digər aktorların addımlarına cavab verməklə kifayətlənmir, eyni zamanda beynəlxalq sistemin struktur imkanlarını və risklərini nəzərə alaraq, öz mövqelərini qabaqcadan müəyyənləşdirən strateji kurslar formalaşdırırlar. Realizmin nəzəri çərçivəsində xarici siyasət bir növ güc və maraqların koordinasiyası kimi başa düşülür. Burada “milli maraq” anlayışı xüsusi əhəmiyyət kəsb edir və bu anlayış Morgenthau üçün normativ deyil, daha çox analitik xarakter daşıyır [4, 563]. Yəni, milli maraq dövlətin xarici siyasətini izah və əsaslandırmaq üçün konseptual əsasdır, lakin bu marağın konkret təzahür forması zaman, məkan və vəziyyətdən asılı olaraq dəyişə bilər. Bu mənada, xarici siyasət çevik, situativ və kontekstual yanaşma tələb edən bir praktikadır. Siyasi realizm, dövlətləri beynəlxalq sistemin əsas vahidləri kimi qəbul edir və bu vahidlərin davranışını anarxik sistem daxilində mövcud olan struktur məhdudiyyətlərlə izah edir. Xarici siyasət bu çərçivədə, bir tərəfdən, dövlətin suverenliyini və təhlükəsizliyini qorumaq üçün həyata keçirdiyi tədbirləri; digər tərəfdən isə beynəlxalq mühitdə maraqlarının tanınması və legitimləşdirilməsi üçün apardığı diplomatik və strateji fəaliyyətləri əhatə edir. Beləliklə, xarici siyasət yalnız taktiki diplomatik alət deyil, həm də dövlətin mövcudluğunu, statusunu və beynəlxalq sistemdəki yerini müəyyən edən əsas mexanizmlərdən biridir. Bu yanaşma həm də xarici siyasətin “daxili siyasətin davamı” olması tezisini təsdiqləyir. Dövlətin daxili strukturunda formalaşan ideoloji, siyasi və iqtisadi prioritetlər, xarici siyasətə yön verən əsas dinamikaları müəyyən edir. Başqa sözlə desək, xarici siyasət, daxili maraqların və dövlətçilik strategiyasının beynəlxalq kontekstdə təcəssüm etdirilməsi prosesidir. Lakin realizm burada

idealist təmayüllərdən fərqli olaraq, dəyərlərə deyil, maraqlara əsaslanan siyasəti müdafiə edir. Dövlətlərin qarşılıqlı əlaqələri onların idealist niyyətlərinə deyil, obyektiv maraqlarına və bu maraqlar uğrunda apardıqları mübarizəyə söykənir. Bütün bunlar göstərir ki, xarici siyasət, realizm kontekstində təkcə normativ çərçivələrlə deyil, həm də geosiyasi reallıqlarla şərtlənən, güc münasibətlərinə əsaslanan və maraqların optimallaşdırılmasını hədəfləyən funksional bir fəaliyyət sahəsidir. Morgenthau'nun yanaşması bu sahədəki strateji qərarların təhlilində istifadə olunan əsas nəzəri platformalardan biri olaraq, müasir dövrdə də aktual elmi və analitik əhəmiyyətini qoruyub saxlayır.

**3.Geosiyasi Determinizm və Xarici Siyasətin Formalaşmasında Məkan Faktorunun Rolu**

Xarici siyasətin nəzəri və praktiki təhlilində dövlətlərin coğrafi mövqeyi və geosiyasi statusu onun regional və qlobal davranış parametrlərini şərtləndirən əsas kontekstual amillərdən biri kimi çıxış edir. Dövlətin fiziki məkanı – yəni sərhədlərinin konfiqurasiyası, dənizlərə çıxış imkanları, təbii resurslara yaxınlığı və mühüm nəqliyyat dəhlizləri ilə inteqrasiyası – yalnız kartoqrafik və topoqrafik reallıqdan ibarət deyil, eyni zamanda strateji və siyasi mahiyyət kəsb edən dəyişən bir dəyişəndir. Bu amillər dövlətin xarici siyasətində üstünlük verdiyi vektorları, təhlükəsizlik doktrinasını və iqtisadi əlaqələrini müəyyənləşdirməkdə həlledici rol oynayır.

Fiziki-coğrafi mühitin xarici siyasət qərarlarına təsiri, geosiyasət elminin metodoloji çərçivəsində daha dərindən anlaşılır. Bu baxımdan, geopolitik analiz sadəcə statik coğrafi dəyişkənlərin təhlilindən ibarət olmayıb, onların beynəlxalq sistemdə güc münasibətləri və maraq toqquşmaları ilə qarşılıqlı əlaqədə necə formalaşdığını araşdırır. Bu sahədə nəzəri əsaslar ilk dəfə klassik geosiyasət məktəbinin nümayəndəsi Fridrix Ratzel tərəfindən sistemləşdirilmişdir. Ratzel dövləti canlı bir orqanizmə bənzədərək, onun yaşaması və inkişafı üçün məkan baxımından genişlənməsinin zəruri olduğunu irəli sürmüşdür [Ratzel, (1899, February), p.173]. Bu konseptual yanaşma, dövlətlərin davranışlarını sadəcə hüquqi və diplomatik çərçivələrlə deyil, məkan uğrunda rəqabət kontekstində də dəyərləndirməyə imkan yaradır.

Geosiyasi düşüncənin təkamülündə daha sonra Halford Mackinder və Alfred Mahan kimi müəlliflər tərəfindən irəli sürülən "Heartland" və "Sea Power" nəzəriyyələri dövlətlərin qlobal sistemdə yerləşməsinin onların strateji üstünlüklərini və xarici siyasət potensialını necə formalaşdırdığını izah edən nümunəvi modellərə çevrilmişdir. Bu nəzəri konstruksiyalar, xüsusilə böyük güclərin xarici siyasət strategiyalarının anlaşılmasında istifadəyə yararlı analitik çərçivələr təqdim edir. Lakin geosiyasi determinizm yalnız güc mərkəzləri ilə məhdudlaşmır; inkişaf etməkdə olan dövlətlər üçün də coğrafi

mövqe beynəlxalq münasibətlərdə manevr imkanlarını genişləndirən və ya məhdudlaşdıran əsas faktorlardan biri kimi çıxış edir.

Bu kontekstdə coğrafi yerləşmə sabit parametr olmaqla yanaşı, beynəlxalq münasibətlər sistemində dəyişkən təsir gücünə malik olan dinamik bir faktora çevrilir. Məsələn, enerji daşıyıcılarının marşrutlarının dəyişməsi və ya nəqliyyat dəhlizlərinin yenidən konfiqurasiyası nəticəsində müəyyən ölkələr geostrateji əhəmiyyət baxımından yeni mövqelər qazana bilirlər. Bu isə onların xarici siyasət prioritetlərini və beynəlxalq aktorlarla münasibətlərini yenidən tənzimləməyə vadar edir. Beləliklə, məkan və mövqe yalnız tarixi miras və təbii reallıq deyil, eyni zamanda dövlətlərin beynəlxalq sistemdə iştirak formasını və xarakterini müəyyən edən strateji determinanta çevrilir.

Ümumiyyətlə, xarici siyasətin formalaşmasında geosiyasi yanaşma, dövlətlərin məkansal təyinatını analitik və empirik səviyyədə nəzərə almağa imkan verir. Coğrafi mövqe beynəlxalq sistemin strukturunda dövlətin yerləşdiyi yeri müəyyən edir, ona geoiqtisadi və geosiyasi imkanlar və məhdudiyyətlər təqdim edir. Bu isə həmin dövlətin xarici siyasət strategiyasının yalnız normativ deyil, eyni zamanda məkan və resurs məntiqinə əsaslanan rasionallıq üzərində qurulmasına səbəb olur. Beləliklə, coğrafiya ilə siyasət arasındakı əlaqə statik əlaqə deyil, prosesual və interaktiv bir qarşılıqlı asılılıq şəklində xarakterizə olunur ki, bu da müasir geosiyasi təhlilin əsas istiqamətlərindən birinə çevrilmişdir.

## 4.Liberal Perspektivdən Xarici Siyasətin Struktur Dinamikası: Ceyms Rozenau Modeli

Beynəlxalq münasibətlər nəzəriyyəsinin liberal ənənəsi, dövlətlərin davranışlarını izah edərkən onların yalnız güc və maraqla deyil, həm də daxili sosial-mədəni strukturlar, institusional proseslər və qlobal qarşılıqlı asılılıqlar kontekstində anlaşıla biləcəyini irəli sürür. Bu yanaşmanın aparıcı nümayəndələrindən biri olan Ceyms Rozenau, xarici siyasəti sadələşdirilmiş davranış modeli deyil, çoxpilləli və qarşılıqlı təsirlərlə zəngin kompleks bir fəaliyyət sahəsi kimi təhlil edir. Onun konseptual çərçivəsi xarici siyasəti üç əsas komponent üzrə sistemləşdirərək, həm nəzəri təhlil, həm də empirik müşahidə üçün inteqral bir analitik model təqdim edir.

Rozenau-nun təklif etdiyi birinci komponent xarici siyasətin ideyalar və oriyentasiyalar müstəvisində formalaşmasını əhatə edir. Bu mərhələ dövlətin tarixdən qaynaqlanan kollektiv təcrübəsi, milli kimlik konstruksiyası, ideoloji konturları və beynəlxalq sistemdə qəbul etdiyi mövqenin ümumi konturlarını müəyyənləşdirir. Başqa sözlə, bu mərhələ xarici siyasətə epistemoloji dəyər qazandıran təməl anlamlar sistemini və simvolik istiqamətvericiləri əhatə edir. Burada dövlətin qərar verici elitlərinin xarici dünyaya dair qəbul etdikləri obrazlar, strateji təhlükə və fürsət anlayışları, müttəfiqlik və rəqib qavrayışları

kimi parametrlər ön plana çıxır. Bu baxımdan, Rozenau xarici siyasətin bu ilkin mərhələsini kognitiv və mədəni konstruksiyalar kontekstində şərh edir.

İkinci komponent isə bu oriyentasiyaların institusional planlaşdırmaya çevrildiyi mərhələdir. Bu mərhələdə xarici siyasət konkret məqsədlərin müəyyənləşdirilməsi, diplomatik strategiyaların hazırlanması, beynəlxalq platformalarda fəaliyyət planlarının tərtib edilməsi və siyasi resursların bu məqsədlərə uyğun səfərbər olunması prosesi kimi qiymətləndirilir. Burada xarici siyasət yalnız niyyətlərin bəyanı deyil, konkret idarəetmə və tətbiq mexanizmlərinə malik bir struktur halına gəlir. Planlaşdırma və proqramlaşdırma xarakteri daşıyan bu faza, xarici siyasətin dövlət aparatının koordinasiyalı fəaliyyəti ilə bağlı olan texnokratik aspektlərini də özündə birləşdirir. Nəticə etibarilə, bu mərhələ dövlətin beynəlxalq münasibətlər sisteminə münasibətini formal qərarlar və hüquqi-siyasi sənədlər vasitəsilə ifadə etdiyi strukturlaşdırılmış səviyyəni təşkil edir.

Rozenau-nun modelinin üçüncü komponenti isə xarici siyasətin konkret davranış formaları vasitəsilə reallaşdığı praktik mərhələni təsvir edir [7, 9]. Bu mərhələ artıq nəzəri oriyentasiyaların və planlaşdırılmış qərarların diplomatik fəaliyyət, çoxtərəfli forumlarda mövqe ifadələri, ikitərəfli münasibətlərdə təşəbbüslər, eləcə də beynəlxalq normativ mexanizmlərdə iştirakı əhatə edən əməli səviyyəyə keçidini təşkil edir. Bu davranış forması həm dövlətin sistemli və planlı şəkildə atdığı addımları, həm də təcili reaksiya tələb edən şəraitlərdə göstərdiyi çevik adaptasiya qabiliyyətini nümayiş etdirir. Bu baxımdan xarici siyasət davranışı həm strukturlaşdırılmış, həm də kontekstual olaraq dəyişkən və situativ xarakter daşıya bilər.

Rozenau-nun xarici siyasətə dair yanaşması onu sırf dövlətlərarası münasibətlərin məhsulu kimi deyil, həm də daxili siyasi, institusional və sosial dəyişkənlərin qarşılıqlı təsiri ilə formalaşan kompleks fenomen kimi təhlil etməyə imkan verir. Onun fikrincə, xarici siyasət dövlətlər tərəfindən beynəlxalq mühitin arzu olunan parametrlərinin qorunması, yaxud arzuolunmaz elementlərinin dəyişdirilməsi məqsədilə həyata keçirilən rasional və legitim fəaliyyətlər toplusudur [6, 8]. Lakin bu fəaliyyətlər hər zaman əvvəlcədən proqnozlaşdırılan nəticələr doğurmur; əksinə, onların nəticələri bəzən gözlənilməz və dinamik olur. Bu isə xarici siyasətin yalnız texniki deyil, həm də strateji qeyri-müəyyənliklərlə yüklənmiş bir proses olduğunu göstərir. Əlavə olaraq, Rozenau-nun yanaşması beynəlxalq münasibətlərdə dövlətin transformativ potensialını da nəzərə alır. Yəni xarici siyasət yalnız mövcud vəziyyətə adaptasiya olunmaq deyil, eyni zamanda bu vəziyyətin dəyişdirilməsi məqsədilə yönəldilmiş strateji müdaxilə formasıdır. Bu baxımdan, xarici siyasət təkcə keçmişin məhsulu deyil, həm də gələcəyin formalaşdırıcısı kimi çıxış edir. Rozenau bu transformativ xarakteri nəzərə

alaraq, xarici siyasəti sosial sistemin beynəlxalq şərtlərə adaptasiyası və çevik tənzimlənməsi üçün mühüm alət kimi dəyərləndirir.

**5.Postinternasionalist Yanaşmada Xarici Siyasətin Çoxtərəfli Strukturlaşdırılması**

Xarici siyasətin analitik təhlilində postinternasionalizm yanaşması dövlət mərkəzli modellərin sərhədlərini aşaraq, daxili və beynəlxalq mühit arasında qarşılıqlı təsiri əsas alan bir konseptual çərçivə təqdim edir. Bu yanaşmanın aparıcı nümayəndələri olan R.Mansbach və R.Hopkinks [3, 138] xarici siyasəti yalnız dövlətlərarası münasibətlər kontekstində deyil, həm də daxili siyasi dinamikaların beynəlxalq təsirlərlə qarşılıqlı əlaqəsi kimi izah edirlər. Onların fikrincə, beynəlxalq sistemin struktur xüsusiyyətləri tədricən dövlətin daxili sahəsinə nüfuz edir və nəticədə xarici siyasət, daxili-siyasi proseslərin beynəlxalq miqyasda təzahürünə çevrilir.

Müəlliflər xarici siyasətin formalaşmasını izah edən faktorları beş əsas kateqoriyaya bölürlər. **Xarici amillər**, dövlətin beynəlxalq mühitdəki mövqeyi, strateji resurslara çıxışı və güc balansındakı rolu ilə bağlıdır. **Fərdi amillər,** liderlərin şəxsiyyət xüsusiyyətləri, qərarvermə tərzi və siyasi dünyagörüşünün xarici siyasət seçimlərinə təsirini əhatə edir. **Rol amilləri**, qərarverici şəxslərin tutduqları vəzifə ilə bağlı sosial gözləntiləri və davranış çərçivələrini əks etdirir. **Hökumət amilləri,** dövlətin institusional quruluşu, qərar qəbul mexanizmləri və idarəetmə strukturuna yönəlik spesifik xüsusiyyətləri nəzərdə tutur. Nəhayət, **sosial amillər**, siyasi mədəniyyət, iqtisadi struktur, cəmiyyətin dəyər sistemi və resurs potensialı kimi daha geniş sosial-ekonomik müstəvidə xarici siyasətin konturlarını müəyyənləşdirən dəyişkənləri əhatə edir.

Bu çoxsəviyyəli yanaşma göstərir ki, xarici siyasət nə təkcə sistemin reaksiyası, nə də sadəcə daxili siyasətin refleksiyasıdır. O, əksinə, müxtəlif səviyyəli və bir-biri ilə qarşılıqlı əlaqədə olan faktorların dinamik birləşməsi nəticəsində formalaşan mürəkkəb bir prosesdir. Beləliklə, postinternasionalizm xarici siyasət analizini çoxaktorlu və çoxvektorlu siyasi mühitin dəyişkənliklərini nəzərə alan daha kompleks və inklüziv metodoloji yanaşma ilə zənginləşdirir.

**6.Sistemli-Struktur Yanaşmada Xarici Siyasət: M. Xrustalyovun Konsepsiyası**

Xarici siyasətə sistemli-struktur baxış müasir beynəlxalq münasibətlər nəzəriyyəsində dövlətlərin davranışlarını yalnız institusional və ya gücə əsaslanan yanaşmalarla deyil, daha geniş sosial kontekstlər və funksional təsirlərlə izah etməyə imkan verən kompleks nəzəri çərçivədir. Bu yanaşmanın diqqətəlayiq nümayəndələrindən olan M. Xrustalyov, xarici siyasəti dövlətin daxili və xarici sosial mühitlə qarşılıqlı təsir müstəvisində həyata keçirdiyi “xüsusi cəmiyyət fəaliyyəti” kimi xarakterizə edir. Bu anlayış, xarici siyasətin

nəinki sadəcə rəsmi qərarların icrası, diplomatik aktların toplusu və ya strateji maraqların ifadəsi olduğunu, həm də sosial reallıqların dərk edilməsinə və onların transformasiyasına yönəlmiş kompleks fəaliyyət sahəsi olduğunu vurğulayır. Xrustalyovun sistemli-struktur yanaşması iki əsas təməl üzərində qurulur. Birincisi, dövlətin xarici siyasəti cəmiyyətin sosial-struktur konfiqurasiyası ilə birbaşa əlaqəlidir və bu siyasət mövcud ictimai nizamın beynəlxalq mühitə inteqrasiyası vasitəsilə formalaşır. İkincisi, xarici siyasət təkcə bu mühiti reaktiv şəkildə əks etdirmir, eyni zamanda onu dəyişdirməyə yönəlmiş məqsədyönlü fəaliyyət kimi çıxış edir. Bu baxımdan, xarici siyasət həm adaptiv, həm də transformativ xüsusiyyətlərə malik olan dinamik bir prosesdir. Xarici siyasətin həyata keçirildiyi sosial kontekst, Xrustalyovun fikrincə, statik deyil, daim dəyişən və qarşılıqlı təsirlərlə formalaşan çoxsəviyyəli bir mühitdir. Dövlət bu mühitin təsirlərini yalnız qəbul etmir, eyni zamanda onun strukturuna müdaxilə etməyə çalışır. Bu yanaşma, klassik realizmdəki kimi yalnız maraqların qorunmasına deyil, həm də bu maraqları formalaşdıran ictimai strukturların və dəyərlərin nəzərə alınmasına əsaslanır. Beləliklə, xarici siyasət dövlətin daxili struktur xüsusiyyətləri ilə beynəlxalq sistemin təsirlərinin kəsişməsində formalaşan bir fəaliyyət sahəsi kimi təqdim olunur. Xrustalyovun konsepsiyasında xarici siyasətin iki səviyyəli təsir mexanizmi ön plana çıxır. Bir tərəfdən, xarici siyasət beynəlxalq mühitin dəyişən reallıqlarına cavab verərək dövlətin öz maraqlarını müdafiə etməsinə xidmət edir. Digər tərəfdən isə, bu siyasət daxili ictimai ehtiyacların, mədəni kodların, siyasi tələblərin və ideoloji meyillərin beynəlxalq müstəvidə ifadəsinə şərait yaradır. Beləliklə, xarici siyasət yalnız geosiyasi deyil, həm də sosioloji fenomen kimi nəzərdən keçirilir. Bu yanaşma, dövlətin beynəlxalq münasibətlər sistemindəki davranışlarını sistemin quruluşuna uyğun olaraq formalaşan obyektiv şərtlərlə izah etməyə çalışır. Lakin fərqli olaraq, Xrustalyov bu struktur təsirləri təkbaşına determinant saymır, əksinə, onların ictimai subyekt tərəfindən necə dərk edildiyi və bu dərkə əsasən hansı davranış strategiyalarının seçildiyinə də xüsusi önəm verir. Bu isə xarici siyasət prosesinə interpretativ və reflektiv yanaşma tələb edir. Sistemli-struktur yanaşma çərçivəsində xarici siyasət cəmiyyətin beynəlxalq reallıqlara verdiyi cavabın təşkil olunmuş forması kimi çıxış edir. Bu fəaliyyət sahəsi bir tərəfdən xarici mühitin obyektiv meyarlarına cavab verir, digər tərəfdən isə cəmiyyətin daxili strukturundan və onun beynəlxalq sistemə inteqrasiya səviyyəsindən qaynaqlanan normativ və strateji seçimləri əks etdirir. Beləliklə, Xrustalyovun yanaşması xarici siyasəti sosial şərtlərlə beynəlxalq struktur arasında vasitəçilik edən çoxşaxəli və adaptiv fəaliyyət kimi dəyərləndirir [8, 9].

## 7.Dövlətin Transformasiyası və Xarici Siyasətin Yeni Aktorlarla Dinamikası

Müasir beynəlxalq münasibətlər nəzəriyyələrinin – xüsusilə neorealizm və strukturalizm kimi istiqamətlərin – nümayəndələri, qlobal sistemdə dövlətin rolunun təkaktorlu strukturdan çoxaktorlu modelə keçdiyini vurğulayırlar. Artıq dövlət, xarici siyasəti formalaşdırarkən və həyata keçirərkən, yalnız suveren iradəsi ilə deyil, həm də çoxsaylı qeyri-dövlət subyektləri ilə qarşılıqlı əlaqədə və rəqabət şəraitində fəaliyyət göstərir. Bu aktorlar sırasında transnasyonal korporasiyalar, beynəlxalq təşkilatlar, qeyri-hökumət strukturları və müxtəlif sosial-siyasi hərəkatlar yer alır ki, onların qlobal təsir dairəsi getdikcə genişlənir.

Bu dəyişikliklər daha çox **qlobal inteqrasiya proseslərində** özünü göstərir. İnteqrasiya, bir tərəfdən dövlətlərin suveren siyasət sahələrini paylaşmasını tələb edir, digər tərəfdən isə onların milli maraqlarını beynəlxalq mexanizmlər vasitəsilə ifadə və müdafiə etməsini mümkün edir. Belə bir mühitdə dövlətin daxili siyasəti ilə xarici siyasəti arasındakı sərhədlər əvvəlki qədər kəskin deyil; xarici siyasətin müəyyənləşməsində xarici amillər və beynəlxalq strukturun təzyiqi daha çox həlledici rol oynayır.

Bu kontekstdə S.Çebotar xarici siyasəti dövlətin beynəlxalq mühitdə fəaliyyət göstərmə arealı kimi dəyərləndirir [1, 29]. Onun fikrincə, milli maraqlar yalnız bu areal daxilində, yəni beynəlxalq və xüsusilə inteqrasiya olunmuş struktur çərçivəsində reallaşdırıla bilər. Bu səbəbdən, uğurlu xarici siyasət strategiyası üçün dövlətlərarası əməkdaşlıq səviyyəsi və effektiv inteqrasiya mexanizmləri əsas determinantlara çevrilmişdir.

Beləliklə, çağdaş beynəlxalq münasibətlər mühitində xarici siyasət, milli maraqlar və inteqrasiya bir-birindən ayrı müstəvilər deyil, qarşılıqlı şəkildə şərtlənən və bir-birini gücləndirən strateji komponentlər kimi çıxış edir.

## 8.Nəticə

Aparılan təhlillər bir daha təsdiq edir ki, xarici siyasət nə determinist bir doktrina, nə də sadəcə reaksiya xarakterli davranışlar toplusu kimi dəyərləndirilə bilər. Bu anlayış müasir dünyada struktur və agentlik, məkan və maraq, sosial dəyərlər və strateji planlama kimi çoxsaylı dəyişkənlərin qarşılıqlı təsiri nəticəsində formalaşan, davamlı şəkildə yenilənən və situativ olaraq adaptasiya olunan mürəkkəb bir prosesdir. Xarici siyasət anlayışı təkcə dövlətlərin digər dövlətlərlə münasibətini deyil, həm də beynəlxalq sistemin dinamikasında baş verən çevrilmələri əks etdirən interaktiv davranış forması kimi çıxış edir.

Realist yanaşma, güc balansı və maraqların optimallaşdırılması əsasında dövlətlərin davranışlarını izah etsə də, bu çərçivə təkbaşına mövcud mürəkkəbliyi tam izah etməkdə kifayət etmir. Liberal və konstruktivist yanaşmalar, beynəlxalq institutlar, normativ çərçivələr və sosial identitetlərin xarici siyasətə təsirini qabardaraq, onun daha çevik və dəyərlərlə zəngin təbiətini ortaya qoyur. Postinternasionalist yanaşma isə dövlətlərin beynəlxalq

aktorlarla yanaşı, daxili siyasi və sosial sistemlərlə qarşılıqlı təsir prosesində fəaliyyət göstərdiyini vurğulayır. Sistemli-struktur yanaşma isə bu əlaqələrin məntiqini daha çox funksional və institusional prizmalardan nəzərdən keçirərək, xarici siyasəti sosial mühitlə beynəlxalq sistem arasında vasitəçilik edən çoxşaxəli bir mexanizm kimi təqdim edir.

Bütün bu yanaşmaların ortaq nöqtəsi ondan ibarətdir ki, xarici siyasət anlayışı artıq mono-aktorlu və mono-səbəbli bir fenomen deyil, əksinə, çoxtərəfli aktorların və paralel mexanizmlərin qarşılıqlı təsiri altında formalaşan dinamik bir sistem kimi nəzərdən keçirilir. Bu isə həm tədqiqatçılar, həm də qərarvericilər üçün xarici siyasəti təhlil edərkən yalnız sabit nəzəri çərçivələrlə kifayətlənməmək, əksinə, dəyişkən mühitə uyğun metodoloji elastiklik nümayiş etdirmək zərurətini yaradır.

Xarici siyasətin elmi təhlili təkcə akademik diskursun bir hissəsi olmaqla qalmır, həm də dövlətlərin strateji qərarvermə proseslərinə nəzəri istiqamət verən və praktik alternativlər formalaşdırmağa kömək edən bir vasitə funksiyasını daşıyır. Müasir beynəlxalq münasibətlər mühitində bu tip çoxaspektli və inteqrativ yanaşmaların tətbiqi, həm nəzəri biliklərin dərinləşdirilməsi, həm də real siyasi proseslərin anlaşılması baxımından əvəzsiz əhəmiyyət kəsb edir.

## 9.ƏDƏBİYYAT

1. Cebotari, S., Saca, V., & Coropcean, I. (2008). *Politica externă a Republicii Moldova în contextul proceselor integraţioniste: Monografie.* Chișinău: Institutul Militar al Forțelor Armate, 180 p.
2. *Enciclopedia universală Britannica.* (2010). București: Editura Litera, Vol. 16, 359 p., p.210.
3. Hopkins, R., & Mansbach, R. (1973). *Structure and process in international politics.* New York: Harper and Row, 498 p.
4. Morgenthau, H. J. (1976). *Politics among nations: The struggle for power and peace* (5th ed.). New York: Alfred A. Knopf, 618 p., p.563.
5. Ratzel, F. (1899, February). Ratzel's "Political geography." *The Geographical Journal [online], 13*(2), 171–173, p.173.
6. Rosenau, J. N. (1974). *Comparing foreign policies: Theories, findings, and methods.* New York: J. Wiley & Sons, 442 p., p.8.
7. Rosenau, J. N. (1976). *World politics: An introduction.* New York: Free Press, 754 p., p.19.
8. Хрусталёв, М. А. (1984). *Основы теории внешней политики государства: Учебное пособие.* Москва: Наука, 79 с.

## REFERENCES

**1.** Cebotari, S., Saca, V., & Coropcean, I. (2008). *Foreign policy of the Republic of Moldova in the context of integration processes: Monograph.* Chisinau: Military Institute of the Armed Forces, 180 p. (in Romanian)
**2.** *Universal Encyclopedia Britannica.* (2010). Bucharest: Litera Publishing House, Vol. 16, 359 p., p.210. (in Romanian)
**3.** Hopkins, R., & Mansbach, R. (1973). *Structure and process in international politics.* New York: Harper and Row, 498 p. (in English)
**4.** Morgenthau, H. J. (1976). *Politics among nations: The struggle for power and peace* (5th ed.). New York: Alfred A. Knopf, 618 p., p.563. (in English)
**5.** Ratzel, F. (1899, February). Ratzel’s “Political geography.” *The Geographical Journal [online], 13*(2), 171–173, p.173. (in English)
**6.** Rosenau, J. N. (1974). *Comparing foreign policies: Theories, findings, and methods.* New York: J. Wiley & Sons, 442 p., p.8. (in English)
**7.** Rosenau, J. N. (1976). *World politics: An introduction.* New York: Free Press, 754 p., p.19. (in English)
**8.** Khrustalev, M. A. (1984). *Fundamentals of the theory of foreign policy of the state: Textbook.* Moscow: Nauka, 79 c. (in Russian)